# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Dəmiryol nəqliyyatı haqqında Nizamnamə”nin təsdiq edilməsi barədə**

“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Dəmiryol nəqliyyatı haqqında Nizamnamə” təsdiq edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 1 iyul 2024-cü il

№ 326

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2024-cü il 1 iyul
tarixli 326 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Dəmiryol nəqliyyatı haqqında

# NİZAMNAMƏ

## 1. Ümumi müddəalar

1.1. Bu Nizamnamə ümumi və qeyri-ümumi istifadəli dəmiryol nəqliyyatının fəaliyyətinin təşkilati əsaslarını müəyyən edir.

1.2. Ümumi istifadədə olan dəmiryol nəqliyyatı xidmətlərinin tarifləri, normativ hüquqi aktlarla müəyyən edilən məhdudiyyətlər və digər tələblər barədə məlumatlar ümumi istifadəli dəmiryol nəqliyyatı infrastrukturunun sahibi (bundan sonra - infrastruktur sahibi) və daşıyıcı tərəfindən onların internet informasiya ehtiyatında, qeyri-ümumi istifadəli dəmiryol nəqliyyatının fəaliyyətinin və ya daşıma prosesinin ayrı-ayrı əməliyyatlarının yerinə yetirilməsini təmin edən dəmir yollarının, dəmiryol stansiyalarının, elektrik təchizatı tikili və qurğularının, rabitə şəbəkələrinin, siqnalizasiya, mərkəzləşmə və bloklama sistemlərinin, informasiya komplekslərinin, hərəkəti idarəetmə sistemlərinin, digər bina, tikili, meydança, qurğu, qoruyucu tikili və avadanlıqlarların (bundan sonra - qeyri-ümumi istifadəli dəmiryol nəqliyyatı obyektləri) sahibləri tərəfindən isə onların internet informasiya ehtiyatında və ya elan lövhələrində yerləşdirilir.

1.3. Sifarişlər (dövlət sirri təşkil edən məlumatların olduğu sifarişlər istisna olmaqla) infrastruktur sahibi və daşıyıcı tərəfindən onların internet informasiya ehtiyatı üzərindən qəbul edilir.

1.4. Bu Nizamnamədə istifadə olunan anlayışlar “Dəmiryol nəqliyyatının texniki istismar Qaydaları”nda və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında nəzərdə tutulmuş mənaları ifadə edir.

## 2. Dəmiryol nəqliyyatının fəaliyyətinin əsas prinsipləri

2.1. Dəmiryol nəqliyyatının fəaliyyətinin əsas prinsipləri aşağıdakılardır:

2.1.1. göstərilən xidmətlərin təhlükəsizliyi, keyfiyyətliliyi və əlçatanlığı;

2.1.2. insanların həyat və sağlamlığının təhlükəsizliyi;

2.1.3. rəqabət qabiliyyətliliyinin yüksəldilməsi;
2.1.4. ətraf mühitin mühafizəsi;
2.1.5. daşıma proseslərinin sabitliyi;
2.1.6. dəmiryol xidmətlərindən maneəsiz və ayrı-seçkilik qoyulmadan istifadə imkanının təmin edilməsi;
2.1.7. daşıma prosesində istehlakçıların hüquq və mənafelərinin qorunması;
2.1.8. daşıma prosesində daşıyıcılarla istehlakçıların maraqlarının uzlaşdırılması;
2.1.9. maliyyə dayanıqlılığının təmin olunması.

## 3. Dəmiryol nəqliyyatında qeydiyyat-hesabat vaxtı

3.1. Dəmiryol nəqliyyatında daşıma proseslərinin idarə edilməsinin fasiləsiz əlaqələndirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının ərazisində vahid qeydiyyat-hesabat vaxtı tətbiq olunur.
3.2. Beynəlxalq daşımalarda qeydiyyat-hesabat dövrü Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilir.

## 4. Ümumi istifadəli dəmiryol nəqliyyatının fəaliyyətinin əsasları

4.1. Ümumi istifadəli dəmiryol nəqliyyatı özündə infrastrukturu, hərəkət tərkiblərini, həmçinin ümumi istifadəli dəmiryol nəqliyyatının fəaliyyətini təmin edən digər əmlakı ehtiva edir.
4.2. Ümumi istifadəli dəmiryol nəqliyyatının, o cümlədən həmin infrastruktur daxilində daşıma proseslərinin idarə edilməsi infrastruktur sahibi tərəfindən həyata keçirilir.
4.3. Ümumi istifadəli dəmiryol nəqliyyatının infrastrukturu daxilində qatarların hərəkətinin təşkili daşıyıcının təklifləri nəzərə alınmaqla infrastruktur sahibi tərəfindən tərtib, təsdiq və tətbiq edilən qatarların hərəkət qrafiki əsasında həyata keçirilir.
4.4. İnfrastruktur sahibinin əsas vəzifələri aşağıdakılardır:
4.4.1. infrastrukturu texniki cəhətdən saz vəziyyətdə saxlamaq;
4.4.2. infrastrukturdan təyinatı üzrə istifadə etmək;
4.4.3. ixtisaslı işçi heyətə malik olmaq;
4.4.4. əməyin mühafizəsi, istismar və hərəkətin təhlükəsizliyi üzrə tələblərin yerinə yetirilməsini təmin etmək;
4.4.5. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq əlilliyi olan şəxslərin

dəmiryol nəqliyyatı xidmətlərindən maneəsiz istifadə etmələri üçün şərait yaratmaq;

4.4.6. fövqəladə halların, nəqliyyat və digər hadisələrin nəticələrinin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər görmək, infrastrukturun texniki mühafizəsi üzrə tədbirlərin həyata keçirilməsini təşkil etmək;

4.4.7. istehsalat proseslərində ölçmə vasitələrinin olmasını və onların işini təmin etmək;

4.4.8. dəmiryol nəqliyyatının işinin pozulması ilə nəticələnən təbii və texnogen xarakterli fövqəladə hadisələr barədə aidiyyəti dövlət orqanlarına (qurumlarına) və əhaliyə dərhal məlumat vermək;

4.4.9. dəmiryol nəqliyyatında istismar və hərəkətin təhlükəsizliyi üzrə tələblərin pozulması nəticəsində baş verən nəqliyyat və digər hadisələr zamanı tədbirlər görmək;

4.4.10. bu Nizamnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş vəzifələri yerinə yetirmək.

4.5. İnfrastruktur sahibi tərəfindən ölkədə dəmiryol daşımaları və mövcud bazara çıxış sahəsində rəqabət şəraiti, habelə daşıyıcıların, yükgöndərənlərin və dəmiryol infrastrukturundan istifadə edən digər şəxslərin ümumi istifadədə olan dəmiryol xətlərindən maneəsiz və ayrı-seçkiliyə yol verilmədən istifadəsi təmin edilməlidir.

## 5. Qeyri-ümumi istifadəli dəmiryol nəqliyyatının fəaliyyətinin əsasları

5.1. Qeyri-ümumi istifadəli dəmiryol nəqliyyatı həmin nəqliyyatın fəaliyyətini və ya daşıma prosesinin ayrı-ayrı əməliyyatlarının yerinə yetirilməsini təmin edən qeyri-ümumi istifadəli dəmiryol nəqliyyatı obyektlərindən və hərəkət tərkiblərindən ibarətdir.

5.2. Qeyri-ümumi istifadəli dəmir yollarında, onlara aid tikililərdə və qurğularda daşımaların həcminə uyğun olaraq manevr və çeşidləmə işləri, yüklərin vaxtlı-vaxtında yüklənilməsi, boşaldılması, həmçinin hərəkət tərkiblərindən səmərəli istifadə olunması və onların saxlanılması təmin olunmalıdır.

5.3. Qeyri-ümumi istifadəli dəmir yollarında, onlara aid tikililərin və qurğuların konstruksiyalarında və vəziyyətində şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə riayət edilməli və ümumi istifadəli dəmir yollarında icazə verilən texniki yükləmə normasında yüklənilmiş vaqonların, həmçinin qeyri-ümumi istifadəli dəmir yollarına

xidmət üçün nəzərdə tutulan hərəkət tərkiblərinin maneəsiz hərəkəti təmin olunmalıdır.

5.4. Qeyri-ümumi istifadəli dəmiryol nəqliyyatının və qeyri-ümumi istifadəli dəmiryol nəqliyyatı obyektinin sahibi dəmiryol nəqliyyatında istismar və hərəkətin təhlükəsizliyi üzrə tələblərə riayət etməklə qeyri-ümumi istifadəli dəmiryol nəqliyyatı obyektlərinin saxlanılmasını və istismarını öz hesabına həyata keçirməli, həmçinin öz ərazisi hüdudlarında dəmir yollarının, yüklərin yüklənilməsi, boşaldılması yerlərinin işıqlandırılmasını və sanitariya tələblərinə uyğun olan vəziyyətdə saxlanılmasını təmin etməlidir.

5.5. Qeyri-ümumi istifadəli dəmir yollarının texniki vəziyyəti infrastruktur sahibi tərəfindən ümumi istifadəli dəmir yolları üçün nəzərdə tutulmuş tələblərə cavab verməlidir.

5.6. Tikilməkdə olan qeyri-ümumi istifadəli dəmir yollarının mövcud ümumi istifadəli dəmir yollarına birləşmə nöqtələri infrastruktur sahibi ilə razılaşdırılır və onların birləşdirilməsi qeyri-ümumi istifadəli dəmir yolu üzərində mülkiyyət hüququna və ya digər hüquqlara malik olan, həmçinin nəqliyyat işlərinin yerinə yetirilməsi və dəmiryol nəqliyyatı xidmətlərinin göstərilməsi ilə əlaqədar tikili və qurğuları malik olan fiziki və ya hüquqi şəxs (bundan sonra - qeyri-ümumi istifadəli dəmir yolunun sahibi) ilə infrastruktur sahibi arasında bağlanılan və texniki tələbləri müəyyən edən texnoloji birləşmə barədə müqavilə əsasında təmin edilir.

5.7. Qeyri-ümumi istifadəli dəmir yolu sahibinin əsas vəzifələri aşağıdakılardır:

5.7.1. qeyri-ümumi istifadəli dəmiryol nəqliyyatı obyektlərini texniki cəhətdən saz vəziyyətdə saxlamaq;

5.7.2. dəmir yollarından təyinatı üzrə istifadə etmək;

5.7.3. ixtisaslı işçi heyətə malik olmaq;

5.7.4. əməyin mühafizəsi, istismar və hərəkətin təhlükəsizliyi üzrə tələblərin yerinə yetirilməsini təmin etmək;

5.7.5. “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq əlilliyi olan şəxslərin qeyri-ümumi istifadəli dəmiryol nəqliyyatı xidmətlərindən maneəsiz istifadə etmələri üçün şərait yaratmaq;

5.7.6. fövqəladə halların, nəqliyyat və digər hadisələrin nəticələrinin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər görmək, ümumi istifadədə olmayan dəmiryol nəqliyyatı obyektlərinin texniki mühafizəsi üzrə tədbirlərin həyata keçirilməsini təşkil etmək;

5.7.7. ölçmə vasitələrinin və onların saz vəziyyətdə olmasını təmin etmək;

5.7.8. aidiyyəti dövlət orqanlarına (qurumlarına) dəmiryol nəqliyyatının işinin pozulması ilə nəticələnən təbii və texnogen xarakterli fövqəladə hadisələr barədə dərhal məlumat vermək;

5.7.9. dəmiryol nəqliyyatında istismar və hərəkətin təhlükəsizliyi üzrə tələblərin pozulması nəticəsində baş verən nəqliyyat və digər hadisələr, onların yaranma səbəbləri və görülmüş tədbirlər barədə aidiyyəti dövlət orqanlarına (qurumlarına) məlumat vermək;

5.7.10. bu Nizamnamə və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş vəzifələri yerinə yetirmək.

5.8. Qeyri-ümumi istifadəli dəmiryol nəqliyyatı obyektlərinin layihələndirilməsi, tikintisi, saxlanılması və hərəkət tərkiblərinin, konteynerlərin alınması həmin obyektlərin sahiblərinin, digər hüquqi və ya fiziki şəxslərin vəsaitləri və ya qanunla qadağan edilməyən digər mənbələr hesabına həyata keçirilir.

## 6. Daşıyıcıya dair əsas tələblər

6.1. Daşıyıcının əsas vəzifələri aşağıdakılardır:

6.1.1. ona məxsus olan hərəkət tərkiblərini texniki cəhətdən saz vəziyyətdə saxlamaq;

6.1.2. dəmiryol nəqliyyatı obyektlərindən təyinatı üzrə istifadə etmək;

6.1.3. ixtisaslı işçi heyətə malik olmaq;

6.1.4. əməyin mühafizəsi, istismar və hərəkətin təhlükəsizliyi üzrə tələblərin yerinə yetirilməsini təmin etmək;

6.1.5. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq əlilliyi olan şəxslərin daşıma xidmətlərindən maneəsiz istifadə etmələri üçün şərait yaratmaq;

6.1.6. fövqəladə halların, nəqliyyat və digər hadisələrin nəticələrinin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər görmək;

6.1.7. daşıma prosesində ölçmə vasitələrinin olmasını və onların işini təmin etmək;

6.1.8. dəmiryol nəqliyyatının işinin pozulmasına gətirib çıxaran təbii və texnogen xarakterli fövqəladə hadisələr barədə aidiyyəti dövlət orqanlarına (qurumlarına) və əhaliyə dərhal məlumat vermək;

6.1.9. istismar və hərəkətin təhlükəsizliyi üzrə tələblərin pozulması nəticəsində baş verən nəqliyyat və digər hadisələr zamanı tədbirlər görmək;

6.1.10. bu Nizamnamə və Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

## 7. Yüklərin, sərnişinlərin, baqajın və yük-baqajın daşınması

7.1. Dəmiryol nəqliyyatı ilə yüklərin daşınması "Dəmiryol nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"na uyğun olaraq həyata keçirilir.

7.2. Dəmiryol nəqliyyatı ilə sərnişinlərin, baqajın və yük-baqajın daşınması "Dəmiryol nəqliyyatı ilə sərnişinlərin, baqajın və yük-baqajın daşınması Qaydaları"na uyğun olaraq həyata keçirilir.

7.3. Yüklərin, sərnişinlərin, baqajın və yük-baqajın daşınması müvafiq daşınma müqaviləsinin bağlanılmasını təsdiq edən sənədlər (dəmiryol nəqliyyatı qaiməsi, sərnişinin gediş sənədi (bilet), baqaj qəbzi və yük-baqaj qəbzi) əsasında həyata keçirilir.

7.4. Dəmiryol nəqliyyatı ilə yüklərin, sərnişinlərin, baqajın və yük-baqajın beynəlxalq daşımaları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən yerinə yetirilir.

## 8. Hərəkət tərkiblərinə və konteynerlərə dair əsas tələblər

8.1. Yüklərin, sərnişinlərin, baqajın və yük-baqajın daşınması üçün nəzərdə tutulmuş hərəkət tərkibləri və konteynerlər istismar və təhlükəsizlik tələblərinə uyğun olmalıdır.

8.2. Beynəlxalq daşımalarda istifadə edilən hərəkət tərkiblərinə dair tələblər Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilir.

## 9. İnfrastruktur sahibinin və qeyri-ümumi istifadəli dəmir yolunun sahibinin daşıyıcılarla qarşılıqlı fəaliyyəti

9.1. İnfrastruktur sahibi olduğu hallar istisna olmaqla, daşıyıcı dəmiryol nəqliyyatı ilə daşıma fəaliyyətinin həyata keçirilməsi məqsədilə infrastruktur sahibi ilə infrastrukturdan istifadə üzrə xidmətlərin göstərilməsi barədə müqavilə bağlayır.

9.2. İnfrastrukturdan istifadə üzrə xidmətlərin göstərilməsi barədə müqavilədə qeyd olunan xidmətlərin siyahısı, dəyəri, xidmətlərə görə hesablaşma qaydaları, həmçinin öhdəliklərin icra edilmədiyinə və ya lazımi səviyyədə icra edilmədiyinə görə tərəflərin məsuliyyəti müəyyən edilir.

9.3. Bu Nizamnamədə və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, infrastruktur sahibi daşıyıcılarla infrastrukturdan istifadə üzrə xidmətlərin göstərilməsi barədə müqavilənin bağlanılmasından imtina edə bilməz.

9.4. İnfrastrukturdan istifadə üzrə xidmətlərin göstərilməsi barədə müqaviləyə uyğun olaraq infrastruktur sahibi daşıyıcıya həmin xidmətləri göstərməyi, daşıyıcı isə bunun müqabilində göstərilən xidmətlərin haqqını ödəməyi öhdəsinə götürür.

9.5. Daşıyıcı ona məxsus olmayan qeyri-ümumi istifadəli dəmir yollarından istifadəyə görə qeyri-ümumi istifadəli dəmir yolunun sahibinə haqq ödəyir.

9.6. Daşıyıcı və qeyri-ümumi istifadəli dəmir yolunun sahibi arasında münasibətlər bu Nizamnamənin 9.2-ci bəndində qeyd olunan şərtlərin nəzərdə tutulduğu müqavilə ilə tənzimlənir.

## 10. Fövqəladə hallarda dəmiryol nəqliyyatının işinin təşkili

10.1. Dəmiryol nəqliyyatının fəaliyyətinə maneə və ya təhdidlər yarada bilən fövqəladə halların qarşısının alınması və belə halların nəticələrinin aradan qaldırılması məqsədilə infrastruktur sahibi, qeyri-ümumi istifadəli dəmiryol nəqliyyatının sahibləri və daşıyıcılar öz vəsaitləri hesabına fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün xüsusi bölmələr (qəza-bərpa qatarları və hərəkət tərkibləri) və yanğınsöndürmə bölmələri (yanğınsöndürmə qatarları) saxlamalı, yaxud bu məqsədlə ixtisaslaşdırılmış təşkilatlarla müvafiq müqavilələr bağlamalıdırlar.

10.2. Aidiyyəti dövlət orqanları (qurumları), habelə əhali fövqəladə halların baş verməsi və onların nəticələrinin aradan qaldırılması istiqamətində görülən tədbirlər barədə dərhal məlumatlandırılır.